# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Dilimiz milli varlığımızdır!



4


№ 057 (7467)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

1 avqust 2026-cı il.
Qiyməti 1 manat


## Azərbaycan - Qırğızıstan: dostluq münasibətlərində YENİ SƏHİFƏ!


2

# Təhlükəsizlik, yoxsa təxribat?



6

*Yaxud, İran Kəşfiyyat Nazirliyinin AzTV barədə qərarına nə ad vermək olar?*

### Birinci siniflər niyə məhz saat 08:00-da dərsə başlayır?


5

### Fransa casusunun həbs olunması ilə yeni faktlar üzə çıxdı


7

### Evdəki görünməz təhlükə: elektrik cərəyanı uşaqları necə hədəfə alır?


8

## Hansı evləri icazəsiz tikmək olmaz?


5

## Tik-tokda itirdiyimiz GƏLƏCƏK...


4





# Azərbaycan - Qırğızıstan: dostluq münasibətlərində YENİ SƏHİFƏ!





***Azərbaycan Mərkəzi Asiya ölkələri ilə münasibətlərin inkişafına xüsusi diqqət göstərir. Daha doğrusu, bu ölkələrlə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın əsas məqsəd və hədəflərindəndir. Prezident İlham Əliyev Qırğızıstanın Çolpon- Ata şəhərində keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının görüşündə qeyd etdi ki, Mərkəzi Asiya ölkələri ilə əlaqələr Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir: "2023-cü ilin əvvəlindən bu günə qədər o, Mərkəzi Asiyanın qardaş ölkələrinə ümumilikdə 16 səfər edib, onun həmin ölkələrdən həmkarları isə 26 dəfə Azərbaycanda səfərdə olublar. Bu statistika münasibətlərin dinamikasından və yaxınlığından açıq şəkildə xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib".***

Prezident İlham Əliyev onu da bildirdi ki, bundan sonra da Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı inkişaf etdirəcək: "Sizi əmin etmək istəyirəm ki, Azərbaycan məşvərət formatının fəal üzvü olacaq və öz tərəfindən əməkdaşlığın daha da inkişaf etdirilməsi, ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşması üçün bütün səyləri göstərəcək".

Azərbaycan Mərkəzi Asiya ölkələri, o cümlədən də Qırğızıstanla iqtisadi, sosial, humanitar və digər sahələr üzrə geniş əməkdaşlıq münasibətlərinə malikdir. Rəsmi məlumata görə, yalnız 2026-cı ilin yanvar-iyun aylarında Azərbaycan və Qırğızıstan arasında ticarət dövriyyəsi təxminən 30 milyon ABŞ dollarına yaxın olub. Son 6 ay ərzində Azərbaycandan Qırğızıstana 25,5 milyon dollarlıq məhsul ixrac olunub, Qırğızıstandan ölkəmizə isə 3,4 milyon dollarlıq məhsul idxal edilib. 2025- ci də isə iki ölkə arasında ticarət dövriyyəsi 77,1 milyon dollardan çox olub. Bu göstəricilər Qırğızıstanın regionun ən dinamik inkişaf edən iqtisadiyyatlarından birinə çevrildiyini göstərir. Azərbaycan isə nəqliyyat-logistika infrastrukturu, enerji layihələri və investisiya mühitinin inkişafı sahəsində topladığı təcrübə ilə Qırğızıstan üçün mühüm tərəfdaş rolunu oynayır. Ona görə də, iki dost, qardaş türk dövləti olaraq Azərbaycanla Qırğızıstan bir-birinə hər bir sahə üzrə dəstək göstərirlər. Təbii ki, bu əlaqələrin yüksələn xətlə inkişaf etdirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarovun müstəsna rolları var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğızıstan Respublikasına həyata keçirdiyi dövlət səfəri Azərbaycan–Qırğızıstan münasibətlərində keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir. Səfər çərçivəsində imzalanan "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" iki qardaş ölkə arasında əməkdaşlığın hüquqi və siyasi bazasını strateji tərəfdaşlıqdan daha yüksək – müttəfiqlik səviyyəsinə yüksəltdi. Bu sənəd yalnız ikitərəfli münasibətlər üçün deyil, bütövlükdə Türk dünyasının siyasi inteqrasiyası baxımından tarixi əhəmiyyət daşıyır. Bu müqavilənin imzalanması həm də tarixi hadisədir.

Səfər zamanı Qırğızıstan Prezidenti Sadır Japarov tərəfindən Prezident İlham Əliyevin ölkənin ən ali mükafatlarından olan birinci dərəcəli "Manas" ordeni ilə təltif edilməsi Prezident İlham Əliyevin nəinki iki ölkə arasında əlaqələrin inkişafına, ümumilikdə Türk Dünyasının inkişafına verdiyi mühüm töfhələrin yüksək dəyəridir. Prezident İlham Əliyevin Qırğızıstan Prezidenti Sadır Japarovu Azərbaycanın ən ali dövlət təltifi olan "Heydər Əliyev" ordeni ilə mükafatlandırması da xüsusi siyasi və mənəvi məna daşıyır. Bu addım qarşılıqlı hörmətin, etimadın və müttəfiqlik münasibətlərinin ən yüksək səviyyəsinin rəmzidir.

Azərbaycan və Qırğızıstan prezidentlərinin təltifolunma mərasimi zamanı çıxış edən Qırğızıstan Prezidenti Sadır Japarov bildirdi ki, ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə Sizin sadiqliyiniz qırğız xalqında dərin hörmət hissləri doğurur. Məhz bu səbəbə görə əziz dostum və qardaşım, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin qırğız respublikasının ali dövlət mükafatı – "Manas" ordeni ilə təltif olunması qərarını qəbul etdim. Bu yüksək mükafat Sizin Qırğızıstan–Azərbaycan münasibətlərinin möhkəmlənməsinə şəxsi töhfənizin təsdiqidir: "Qırğız Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizi bu yüksək mükafat münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram".

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirdi ki, bizim mehriban, dost və qardaş münasibətlərimiz ölkələrimiz arasında bugünkü uğurlu inkişafın mühüm amilidir: "Həmçinin mənim ünvanıma söylədiyiniz xoş sözlərə, bu yüksək ordenə görə Sizə səmimi minnətdarlığımı bildirirəm və Sizi əmin edirəm ki, Qırğızıstan-Azərbaycan münasibətlərinin ölkələrimizin və xalqlarımızın rifahı naminə davamlı inkişafı üçün bundan sonra da bütün səylərimi göstərəcəyəm. Belə yüksək mükafata görə bir daha ürəkdən təşəkkür edirəm".

Azərbaycan Prezidenti İlham Əliyev onu da bildirdi ki, bu yüksək mükafatı təqdim etməzdən əvvəl, Sadır Nurqojoyeviç, şəxsən Sizi, Sizin komandanızı, qardaş qırğız xalqını Qırğızıstanın Sizin rəhbərliyiniz ilə qazanılan tarixi nailiyyətlər münasibətilə bir daha təbrik etmək istərdim. Mən Qırğızıstana ilk dəfə deyil ki, səfər edirəm, amma məhz Sizin prezidentliyiniz dövründə bizim aramızdakı təmaslar müntəzəm xarakter daşıyır. Mənim Qırğızıstana səfərlərimi və Sadır Nurqojoyeviçin Azərbaycana səfərlərini saysaq, onlarla qarşılıqlı səfər həyata keçirilib.Lakin bütün bunlar məhz qardaş Qırğızıstan xalqının ölkə Prezidenti kimi yüksək vəzifəni Sizə etimad etməsindən sonra baş verir. Dəyişiklikləri hamı görür. Bunları həm dostlar, həm də ölkəyə gələn xarici müşahidəçilər görürlər. Onları görməmək mümkün deyil. Hətta bu gün İssık-Kul rayonunda müşahidə etdiklərimiz də Sadır Nurqojoyeviçin Qırğızıstana rəhbərliyi olmadan təsəvvür etmək mümkün deyil. Qırğız torpağının bu gözəl guşəsi hazırda ən əsas inkişaf dövrünü keçirir. Tarixdə heç kim heç vaxt belə qısa müddətdə burada gördüyümüz güclü inkişafın şahidi olmayıb. Bu, şəxsən Sizin xidmətinizdir. Sizin öz xalqınıza, öz köklərinizə, Qırğız xalqının yüksək mənəvi dəyərlərinə sədaqətinizdir və Qırğızıstanı yeni inkişaf səviyyəsinə yüksəltmək səylərinizdir. Siz buna nail olursunuz. Bu gün Sizin ölkənizin beynəlxalq nüfuzu ən yüksək səviyyədədir və Qırğızıstanın beynəlxalq ali orqana seçilməsi bunu təsdiq edir.

***Ardı Səh. 3***

# Azərbaycan - Qırğızıstan: dostluq münasibətlərində YENİ SƏHİFƏ!





Əvvəli-Səh-2



İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər. Qırğızıstan Prezidenti Sadır Japarov çıxışında əminliklə bildirib ki, bu səfər qardaş münasibətlərimizin möhkəmlənməsinə yeni impuls verəcək. Qırğızıstan ilə Azərbaycan bir-birini daim dəstəkləyir və qarşılıqlı maraq doğuran məsələlər üzrə mövqelərini uğurla əlaqələndirir.

Məmnunluqla qeyd edirəm ki, Qırğızıstanla Azərbaycan arasında siyasi dialoq bu gün ən yüksək səviyyədədir. Müntəzəm təmaslar və qarşılıqlı etimad bu gün qurulan müttəfiqlik münasibətləri üçün möhkəm zəmin yaradır. Prezident Sadır Japarov qeyd etdi ki, gələcəkdə də işgüzar əlaqələrin genişlənməsi, müştərək investisiya layihələrinin həyata keçirilməsi üçün əlverişli şərait yaradılmasına dair razılıq əldə etdik. Bu gün Azərbaycan-Qırğızıstan Fondunun fəaliyyəti çərçivəsində 3 birgə layihənin açılışı oldu və 8 təşəbbüsün həyata keçirilməsinə start verildi.

Nəqliyyat dəhlizlərinin inkişafı və ölkələrimizin tranzit potensialından səmərəli istifadə edilməsi məsələlərinə xüsusi diqqət yetirdik. Azərbaycanın Mərkəzi Asiyanı Avropa bazarları ilə birləşdirən Orta Dəhlizin əsas bəndi kimi mühüm rolunu qeyd etdik. Həmçinin energetika sahəsində perspektivli istiqamətləri və birgə layihələrin həyata keçirilməsi imkanlarını müzakirə etdik. Bu gün İssık-Kul gölü sahilində Azərbaycanın inşa etdiyi ilk 5 ulduzlu hotelin təntənəli açılışı olacaq.

Çıxışının sonunda Prezident Sadır Japarov Azərbaycan Prezidenti İlham Əliyevi VI Ümumdünya Köçəri Oyunlarının təntənəli açılış mərasimində, "ŞƏT+" Sammitində, həmçinin 2027-ci il oktyabrın 21-23-də keçiriləcək "Bişkek+25" ikinci Qlobal Dağ Sammitində iştiraka dəvət edib.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında iki ölkə arasında qurulan müttəfiqlik münasibətlərinə yönəltdi. Bildirdi ki, müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq. Biz bütün təşəbbüslərdə - həm beynəlxalq platformalarda, həm də iqtisadi-ticari sahədə və təhlükəsizliyin möhkəmləndirilməsində bir-birimizi bundan sonra da dəstəkləyəcəyik: "Siz qeyd etdiyiniz kimi, bu gün imzalanan sənədlər zərfi qarşılıqlı fəaliyyətimizin geniş sferasını nümayiş etdirir. Əminəm ki, səfərimin nəticələrinə görə əldə olunan razılaşmalar da əvvəlkilər kimi uğurla həyata keçiriləcək.Bu gün biz birgə Azərbaycan-Qırğız İnvestisiya Fondunun maliyyə vəsaitinin iki dəfə - 200 milyon dollara qədər artırılması barədə razılıq əldə etdik. Əminəm ki, bu da son hədd deyil, çünki Fondun fəaliyyəti üzrə bizə nümayiş etdirilən təqdimat konkret məzmunla zənginləşir. Qırğızıstanda həyata keçirilən çoxlu layihə var və onlar birgə istehsal, yeni iş yerləri yaradır, qarşılıqlı fəaliyyətimizin iqtisadi potensialını möhkəmləndirir. Həmçinin bu gün həmkarlarımızla bizim birgə qərarımız olan "Bakı" hotelinin açılışında da iştirak edəcəyik. Biz çox sevinirik və fəxr edirik ki, İssık-Kulun sahilində ilk beşulduzlu hotel Azərbaycan dövlətinin vəsaiti ilə inşa edilib və "Bakı" adını daşıyır".

Prezident İlham Əliyev Qarabağın bərpasına göstərilən köməyə görə Qırğızıstana minnətdarlıq etdi: "Sizinlə birlikdə Ağdam rayonunda "Manas" adını daşıyan məktəbin açılışında iştirak etdik. Bu, Qırğız xalqının 30 il ərzində işğaldan zərər çəkən Qarabağın bərpası işinə böyük töhfəsi oldu.Bizi tarix, mədəniyyət, xalqlarımızın görkəmli nümayəndələrinə hörmət ilə bağlı çox şey birləşdirir. Biz Sizinlə, həmçinin Bakıda Çingiz Aytmatovun abidəsini və onun adını daşıyan parkın açılışını etdik. Bu yerlər, həmçinin Çingiz Aytmatovun həyatı və fəaliyyəti ilə bağlıdır. Bu gün görüş keçirdiyimiz ev də onunla bağlıdır və divarlarda onun portreti var. Bütün bunlar bizim bir-birimizə yaxınlaşmaq səylərimizi nümayiş etdirir".

Dünən Qırğızıstanın Çolpon-Ata şəhərində Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib. Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çolpon-Ata şəhərindəki Konqres Mərkəzinə gəlib. Qırğızıstan Prezidenti Sadır Japarov dövlətimizin başçısını və görüşdə iştirak edən digər prezidentləri qarşılayıb. Azərbaycanın, Qırğızıstanın, Özbəkistanın, Qazaxıstanın, Tacikistanın və Türkmənistanın dövlət başçıları birgə foto çəkdirdilər. Dövlətimizin başçısı görüşdə çıxış edib.

Bundan başqa, iyulun 31-də Qırğızıstanda, İssık-Kul gölünün sahilində beşulduzlu "Baku Resort & Spa" mehmanxanasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, Qırğız Respublikasının Prezidenti Sadır Japarov və birinci xanım Ayqul Japarova, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və birinci xanım Ziroatxon Mirziyoyeva, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov tədbirdə iştirak ediblər.

***İ.ƏLİYEV***

# Dilimiz milli varlığımızdır!

*Zəngin tarixi köklərə malik Azərbaycan dili – ana dilimiz xalqımızın varlığını, kimliyini sübut edən amilllərdəndir. Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən, onu tanıdan, təbii ki, ana dilidir. Ana dili dövlət rəmzlərimiz olan bayraq, gerb, himn kimi müqəddəsdir. Dil hər bir millətin varlığını ifadə edən, maddi, mənəvi irsini qoruyan və inkişaf etdirən vasitədir. Milli şüurun və milli kimliyimizin formalaşmasında rolu olan dilimiz zaman-zaman qorunub-saxlanılmış və bu günümüzə qədər gəlib çatmışdır. Yaşadığımız illərə nəzər salsaq görərik ki, hər zaman humanist, sülhsevər, mehriban və xeyirxah xalq olan, tolerantlığın ünvanına çevrilən, sülhün qorunmasına töhfələr verən Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində mücadilələrlə dolu illər yaşamış və sözsüz ki, bu proseslər dilə təsirini göstərmişdir.*

Zaman-zaman Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə edib. Böyük Azərbaycan ədibləri, alimləri, mütəfəkkirləri, İslam mədəniyyətinin təşəkkül tapıb inkişaf etməsində mühüm rol oynayaraq bəşər sivilizasiyasını zənginləşdiriblər. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməməsi, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmaması XIX əsrin ikinci yarısından etibarən Mirzə Fətəli Axundov başda olmaqla, dövrün mütərəqqi maarifçi ziyalılarını əlifba islahatı problemi üzərində düşünməyə vadar edib. Bu, Azərbaycan xalqının həmin dövrdə yaşadığı tarixi şəraitdən doğan zərurət idi. XX əsrin əvvəllərində cərəyan edən ictimai-siyasi və mədəni proseslərin gedişatı, mövcud əlifbanı daha münasibi ilə əvəz etmək ideyasını ortaya atmışdı.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni Əlifba Komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtibinin tapşırılması yeni qrafikaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Umumittifaq Türkoloji qurultayın tövsiyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Həmin əlifba 1940-cı il yanvarın 1-dən ki¬ril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu.

### "HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI, HƏR BİR AZƏRBAYCANLI ÖZ ANA DİLİNİ, AZƏRBAYCAN DİLİNİ VƏ DÖVLƏT DİLİNİ MÜKƏMMƏL BİLMƏLİDİR"

Tariximiz, keçmişimiz, bu günümüz və gələcəyimiz olan, xalqımızın varlığının rəmzinə cevrilən Azərbaycan dili cağdaş dünyamıza qədər çox ziddiyyətli yollar keçsə də, amma öz zənginliyini və saflığını qoruyub-saxlamışdır. Hələ sovet dövrümdə yaşadığımız illərdə - ötən əsrin 70-ci illərində dövlət dilinin qorunması uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider Heydər Əliyev bütün ziyalıları, vətəndaşlarımızı səfərbər edərək, ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb etmişdi. 1969-cu ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar cətinliklə olsa da, nəticəsini verməyə başladı. Ana dilinin hərtərəfli inkişafı Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir", - deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə çox cəsarətlə və qətiyyətlə prinsipial mövqedən çıxış edirdi. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət




dili Azərbaycan dilidir."

Azərbaycan Konstitusiyası böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusunu aldı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Həmin illərdə Azərbaycan dilinin tarixi ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabı işıq üzü gördü. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yaranmış vəziyyət, özbaşınalıq hakimiyyətə gələn naşı və səriştəsiz şəxslərin idarəetmədəki təcrübəsizliyi müstəqilliyimizi uçuruma aparır, ölkəni məhvə sürükləyirdi. Xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev ölkə həyatının bütün sahələrində olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması, adət-ənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlamışdır. "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik", - deyə Ulu Öndər Heydər Əliyev bildirmişdir. Qısa bir zamanda dil sahəsində islahatlar həyata kecirildi.

### ANA DİLİMİZ AZƏRBAYCAN DİLİDİR VƏ BU DİLİ VƏTƏNİNİ, XALQINI SEVƏN HƏR BİR AZƏRBAYCANLI BİLMƏLİDİR

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də Referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Müstəqilliyimizin bərpasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpası zəruriəti yarandı. Bu müvafiq qanunun qəbul olunması ilə nəticələndi. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günü kimi qeyd olunması ilə bağlı 9 avqust 2001-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Fərman imzalandı. Ümummilli Lider Heydər Əliyevin imzaladığı sərəncamlar əsasında Azərbaycan dilinin təkmilləşməsinə, onun inkişafına yeni yol açıldı. Daha sonra Ulu Öndər Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Sərəncamı da milli-mənəvi dəyərlərin qorunub-saxlanması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətin əsasını təşkil edən amillərdəndir.

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım idi. Hər bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşı olan dili kimliyimizi təsdiq edir. Ulu Öndər gənclərə tövsiyə edərək deyirdi: "Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan."

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərir. Dövət başçısının yürütdüyü dil siyasəti Azərbaycan dilinin inkişafına öz töhfələrini verir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Bu gün Azərbaycan dili hərtərəfli inkişaf edir və sevindirici haldır ki, dünyanın ən mötəbər tribunalarından eşidilir. Ana dilimiz Azərbaycan dilidir və bu dili vətənini, xalqını sevən hər bir azərbaycanlı bilməlidir.

***Zümrüd BAYRAMOVA***



Mətləb Salahov

## Tik-tokda itirdiyimiz GƏLƏCƏK...

***Yadıma gəlir, uşaq vaxtı yol qəzasında, xəstəlikdə erkən rəhmətə gedən cavanlar üçün deyirdilər ki, "əcəl aparan dağ boyda igidlər". Bu gün, 2026-cı ilin bu vaxtı isə artıq tam başqa deyim var: internetin, telefon manyaklığının qurbanı olan, xüsusilə yiyəsiz xarabaxanaya çevrilmiş tik-tokun igid oğlandan əziliz-büzülən üzdənirağa, ar-namuslu məsum qız uşağından ləçər fahşəyə çevrildiyi bədbəxt nəsil...Adını sadaladığım bu axırıncı texnologiyalar necə oğulları, necə ismətli qızları aldı əlimizdən.***

Cinsi azlıqların, ləçər fahişələrin reklamına dönmüş tik-tok yüz erməni işğalından qat-qat ağır zərbələr vurdu xalqımızın genefonuna. Günü bu gün də göbələk kimi artan əzilib-büzülən gədələr, özünü "tik toker" adlandırıb canlı yayımda min hoqqadan ləçərlər bugünkü gənclərimizi göz görə-görə fəlakətə sürükləyirlər.Hər yenilyi kor-koranə, bilib-bilmədən həmin dəqiqə ciyərlərimizə çəkmək xəstəliyimiz min bəla açır başımıza. Dünyada ilk nə icad olunursa, ilk bizim qapımızda peyda olur.

Zayı çıxan Çin avtomobillərindən tutmuş insan sağlamlığına ölümcül ziyan olan mobil telefonlara, yöndəmsiz geyimlərə, qan qiymətinə olan bahalı çantalara qədər. Amma bir erməni ilə bir gürcü bu işdə bizimki kimi deyillər. Onların qapısında zay Çin avtomobilləri əvəzinə illərin alman markaları dayanır. Çünki bu qonşularımız keçici zövqə deyil, dayanıqlı keyfiyyətə önəm verirlər bizdən fərqli olaraq...Gələk sosial şəbəkə dərəbəyliyinə. Artıq iş o yerə çatıb ki, sosial şəbəkə manyaklığı gənclərimizi psixoz qatilə də çevirib. İşimiz həqiqətən çətindir. Son bir ildə məktəblərdə şagirdlərin öz sinif yoldaşlarını və müəllimləri hədəf alan cinayətkar hərəkətləri cəmiyyətdə şok effekti yaradıb. Lakin bu cür qatil düşüncəli uşaqları kim yetişdirir? – nəzarətsiz internet, sosial şəbəkələr!

Bəli, bu mövzu demək olar ki, bu gün cəmiyyətin bir nömrəli əsas problemidir. İnternet resurslarının, xüsusilə sosial şəbəkələrin nəzarətsiz poliqon kimi cəmiyyəti başına götürdüyü bir zamanda uşaq və yeniyetmələrin zərərli informasiyalardan qorunması vacibdən vacib məsələdir. Nəzərə alsaq ki, əksər valideynlər də bu məsələyə lazımı şəkildə diqqət göstərmirlər, o zaman gələcəyimizlə bağlı vahimə daha da böyüyür. Çünki tik-tok və digər sosial şəbəkə seqmentlərində cinsi azlıqların, əxlaq pozğunu olan bir sıra "müğənnilərin" reklamı, habelə uşaqların psixologiyasına dəhşət zərbə vuran qorxulu oyunların nümayişi ölkə olaraq bizi dəhşətli fəlakətə sürükləyir.Dağdakı çobana da məlumdur ki, nəzarətsiz internet məkanında ilk hədəf uşaq və yeniyetmələr seçilir. Bu iyrənc və təhlükəli siyasət uşaqların psixologiyasına, gələcəkdə şəxsiyyət kimi şikəst formalaşmasına zəmin yaradır. Əlbəttə, uşaqları internetdəki zərərli informasiyalardan qorumaq, ilk növbədə, valideynlərin məsuliyyətidir: Lakin min dəfə təəssüflər olsun ki, bir sıra valideynlər uşaqlarını əyləndirmək, sakitləşdirmək, ya da özlərinə vaxt ayırmaq üçün körpələri internetin ağuşuna atırlar. Uşaqların yaşına uyğun olmayan təhlükəli informasiya və reklamlarla tanışlıq onların hərəkət və fizioloji durumuna da mənfi təsir edir. Artıq iş o yerə çatıb ki, uşaqların internet aludəçiliyi psixoloji tramva halına çevrilib.

Artıq bir neçə ildir ki, uşaq və yeniyetmələrin manyak şəkildə qatilə, zərərli manyaka çevrilməsi sürətli hal alıb. Düzdür, ölkəmizdə internetə giriş üçün yaş məhdudiyyətinin qoyulması barədə mühüm qanunvericilik təklifi hazırlanır. Bu, çox vacib və zəruri məsələdir. Çünki dövlət və cəmiyyət olaraq bu təhlükəyə qarşı birgə tədbirlər görməsək, uzağı dörd-beş il ərzində bizi çox təhlükəli situasiya gözləyir. Çünki bu gün tik-tokda itirdiyimiz gələcək nəsil gələcək Azərbaycan deməkdir, unutmayaq!

# Birinci siniflər niyə məhz saat 08:00-da dərsə başlayır?

***Yeni tədris ilinin yaxınlaşması ilə valideynləri ən çox maraqlandıran məsələlərdən biri də birinci sinif şagirdlərinin dərsə başlama saatıdır. Xüsusilə dərslərin əksər məktəblərdə saat 08:00-da başlaması bəzi valideynlərdə suallar yaradır. Onlar hesab edirlər ki, 6 yaşlı uşaqların səhər tezdən oyanaraq məktəbə getməsi həm fiziki, həm də psixoloji baxımdan çətinlik yarada bilər. Digər tərəfdən, dərs cədvəllərinin məktəblərin iş rejimi və təşkilati imkanları nəzərə alınmaqla tərtib edildiyi bildirilir. Bəs birinci siniflər üçün dərslərin məhz səhər saatlarında başlaması hansı prinsiplərə əsaslanır? Bu sahədə hansı qaydalar mövcuddur və mütəxəssislər bu barədə nə düşünür? SİA mövzu ilə bağlı araşdırma edib.***



Dünya təcrübəsində birinci siniflər üçün vahid dərsə başlama saatı yoxdur. Bu, ölkənin təhsil sistemi, məktəbin iş rejimi, nəqliyyat imkanları və şagird sayından asılı olaraq dəyişir. Lakin ümumi tendensiya ondan ibarətdir ki, ibtidai siniflərdə dərslər əksər hallarda 08:00–09:00 aralığında başlayır.

**Məsələn:**

Finlandiya və digər Skandinaviya ölkələrinin bir çox məktəblərində ibtidai siniflərdə dərslər adətən 08:30–09:00 arasında başlayır. Bu ölkələrdə uşaqların yaş xüsusiyyətləri və rifahı təhsil siyasətində əsas prioritetlərdən hesab olunur. ABŞ-da vahid qayda yoxdur. Ştat və məktəblərə görə dərslər 07:30-dan 09:00-a qədər müxtəlif saatlarda başlaya bilər. Son illərdə daha çox orta və yuxarı siniflər üçün dərslərin gec başlaması ilə bağlı dəyişikliklər edilir, çünki yeniyetmələrin bioloji ritmi buna ehtiyac yaradır.

Yeni Zelandiya və Avstraliya məktəblərinin əksəriyyətində ibtidai siniflər üçün dərslər təxminən 08:30–09:00 arasında başlayır.

Təhsil üzrə beynəlxalq araşdırmalar göstərir ki, kiçik yaşlı uşaqlarla yeniyetmələrin yuxu ritmi fərqlidir. Buna görə də dərslərin daha gec başlaması ilə bağlı elmi tövsiyələr əsasən orta və yuxarı sinif şagirdlərinə aiddir. Birinci siniflər üçün isə dərs saatı müəyyən edilərkən uşağın yuxu rejimi ilə yanaşı, məktəbin növbəliliyi, nəqliyyat və təşkilati imkanlar da nəzərə alınır.

Təhsil eksperti Ramin Nurəliyev bildirib ki, Azərbaycanda ümumtəhsil məktəblərində dərslərin başlama və bitmə saatları məktəblər tərəfindən sərbəst müəyyən edilmir. Bu məsələ Elm və Təhsil Nazirliyi və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin müəyyən etdiyi qaydalar əsasında tənzimlənir:

"Ölkədə böyük saat fərqi olmadığından dərslərin başlanma vaxtı bütün məktəblər üçün vahid prinsiplər əsasında müəyyən edilir. Ümumilikdə orta ümumtəhsil məktəblərində dərslər saat 08:00-da başlayır. Günortadan sonrakı növbələr də müvafiq qaydalara uyğun təşkil olunur. Məktəblər özbaşına bu saatı dəyişə bilməz. Yalnız xüsusi zərurət yarandıqda, məsələn, dağ və ya ucqar ərazilərdə nəqliyyat və gediş-gəliş problemləri olduqda, məktəb pedaqoji şurasının qərarı ilə regional təhsil idarəsinə müraciət edə bilər. Razılıq verildiyi təqdirdə dərsin başlama və ya bitmə vaxtında dəyişiklik edilə bilər."

Onun sözlərinə görə, birinci sinif şagirdləri üçün dərslərin daha gec saatda başlaması ilə bağlı müxtəlif fikirlər səslənsə də, beynəlxalq təcrübədə erkən başlayan dərslərin müəyyən üstünlükləri qeyd olunur. "Uşaqlar səhər saatlarında dərsə daha hazırlıqlı olurlar. Beyin daha dinc vəziyyətdə olduğundan qavrama və öyrənmə qabiliyyəti yüksək olur. Bundan əlavə, dərslərin saat 09:00-da başlaması nəqliyyat sıxlığını artıra və valideynlərin iş rejimində çətinlik yarada bilər. Hazırkı sistem həm nəqliyyat infrastrukturunun yükünü azaltmaq, həm də valideynlərin övladlarını məktəbə qoyaraq vaxtında işə çatmasını təmin etmək məqsədi daşıyır." Ekspert qeyd edib ki, xarici ölkələrdə dərs saatları ölkənin coğrafi xüsusiyyətləri, saat qurşaqları və yerli təhsil siyasətinə uyğun tənzimlənsə də, Azərbaycanda bu proses mərkəzləşdirilmiş qaydada həyata keçirilir.

Nevroloq Röyanə Quliyevanın sözlərinə görə, 6–7 yaşlı uşaqlar üçün məktəbin başlanma saatı ilə bağlı elmi araşdırmalar göstərir ki, bu yaş qrupu yeniyetmələrdən fərqli olaraq daha erkən yatmağa və daha erkən oyanmağa meyllidir: "Buna görə də saat 08:00-da dərsin başlaması əksər 6–7 yaşlı uşaqların bioloji ritminə uyğun hesab oluna bilər, lakin bunun vacib şərti uşağın kifayət qədər yuxu almasıdır. Milli Yuxu Fondu (National Sleep Foundation) və Amerika Yuxu Təbabəti Akademiyası (AASM) bu yaşda uşaqlar üçün 9–12 saat gecə yuxusunu tövsiyə edir. Əgər uşaq bu qədər yuxu almırsa, saat 08:00-da dərsdə olması onun orqanizmi üçün çətinlik yarada bilər.

Erkən oyanma kifayət qədər yuxu ilə müşayiət olunmadıqda, uşağın diqqətinin cəmlənməsini, işçi yaddaşını, yeni məlumatları öyrənmə qabiliyyətini və akademik nailiyyətlərini azalda bilər. Yuxu çatışmazlığı həmçinin emosional tənzimləməni pozur, əsəbilik, aqressivlik, narahatlıq və motivasiya azalması ilə əlaqələndirilir. Uzunmüddətli yuxu defisiti davranış problemləri və hətta DEHB-yə bənzər əlamətlərin daha qabarıq görünməsinə səbəb ola bilər. Əksinə, kifayət qədər yuxu alan uşaqlar dərsdə daha diqqətli olur, məlumatı daha yaxşı mənimsəyir və emosional cəhətdən daha sabit olurlar.

Beynəlxalq tövsiyələr yaş qruplarına görə fərqlənir. Amerika Pediatriya Akademiyası (AAP) və digər beynəlxalq təşkilatlar əsasən yeniyetmələr üçün məktəbin 08:30-dan tez başlamamasını tövsiyə edir, çünki onların bioloji saatı daha gec yuxuya getməyə meyllidir. Lakin ibtidai sinif şagirdləri (6–12 yaş) üçün saat 08:00–08:30 aralığında dərs başlanğıcı ümumiyyətlə uyğun hesab edilir. Bununla belə, ekspertlər vurğulayırlar ki, əsas məqsəd məktəb saatını dəyişməkdən çox, uşağın yaşına uyğun yuxu müddətini təmin etməkdir.

Əsas nəticə: 6–7 yaşlı uşaq axşam vaxtında yatır və gecə 9–12 saat keyfiyyətli yuxu alırsa, saat 08:00-da dərsin başlaması adətən bioloji ritminə uyğundur. Ancaq erkən məktəbə görə yuxu müddəti azalırsa, bu, diqqət, öyrənmə və psixi sağlamlıq baxımından mənfi nəticələrə səbəb ola bilər".

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2011-ci il tarixli, 5 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nə əsasən, uşaqların 1-ci sinifdə təhsil prosesi bir sıra tələblərə riayət edilməklə həyata keçirilməlidir. Belə ki, tədris məşğələləri yalnız birinci növbədə keçirilir, 5 günlük tədris həftəsi tətbiq olunur və tədris həftəsinin ortasında asanlaşdırılmış tədris günü təşkil edilir. İbtidai siniflərdə təhsil alanların fiziki tərbiyə və musiqi fənləri istisna olmaqla, sırf təlim vaxtı ümumi dərs vaxtının 80 faizindən artıq olmamalıdır. Şagirdlərin yorulmaması, qamətinin pozulmaması və görmə qabiliyyətinin qorunması məqsədilə oxu, yazı və riyaziyyat fənlərinin tədrisi zamanı gözlər üçün gimnastika hərəkətlərinin həyata keçirilməsi zəruridir. Qərarda dərslərin səhər saat 8:00-da başlamasının məqsədəuyğun olduğu da qeyd edilir. Ayrı-ayrı fənlərin dərindən tədris olunduğu ümumi təhsil müəssisələrində, lisey və gimnaziyalarda dərslər, bir qayda olaraq, birinci növbədə keçirilir. Bir neçə növbədə fəaliyyət göstərən ümumi təhsil müəssisələrində isə 1-ci, 5-ci və buraxılış siniflərinin dərsləri birinci növbədə təşkil edilməlidir. Eyni zamanda, şagirdlərin dərs cədvəlləri gündəlik və həftəlik əqli iş gərginliyi nəzərə alınmaqla tərtib olunmalı, aşağı siniflərdə əsas fənlər musiqi, təsviri incəsənət, texnologiya və fiziki tərbiyə fənləri ilə növbələşdirilməlidir.

***Ayşən Vəli***

# Hansı evləri icazəsiz tikmək olmaz?



Azərbaycanda fərdi yaşayış evlərinin tikintisi ilə bağlı vətəndaşları maraqlandıran əsas məsələlərdən biri də tikinti üçün rəsmi icazənin hansı hallarda tələb olunmasıdır. Bəs, qanunvericilik müəyyən ölçülərdə evlərin tikintisinə icazəsiz şərait yaradırmı?

Məsələ ilə bağlı vəkil Etibar Qarayev SİA-ya açıqlamasında bildirib ki, bəzi fərdi yaşayış evlərinin tikintisi üçün dövlət orqanlarından xüsusi icazə almağa ehtiyac yoxdur: "Şəhərsalma və Tikinti Məcəlləsinin 80-ci maddəsinə əsasən, mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan fərdi yaşayış evlərinin tikintisi üçün hər hansı dövlət qurumundan icazə tələb edilmir. Bu halda vətəndaşlar tikintiyə başlamaq üçün icazə almaq məcburiyyətində olmasalar da, qanunvericilikdə nəzərdə tutulan digər şəhərsalma və tikinti normalarına riayət etməlidirlər. Müəyyən edilmiş parametrlərdən kənara çıxan tikililər üçün isə müvafiq qaydada icazə sənədlərinin alınması zəruridir. Buna görə də tikintiyə başlamazdan əvvəl layihənin qanunvericiliyin tələblərinə uyğun olub-olmamasının dəqiqləşdirilməsi vacibdir".



VƏKİL AÇIQLADI

***Arzu Qurbanlı***

# Təhlükəsizlik, yoxsa təxribat?

GÜNÜN SUALI

***İran Azərbaycana qarşı yeni təxribata əl atıb. Bu ölkənin Kəşfiyyat Nazirliyi Azərbaycan Televiziyasını (AzTV) "düşmən media qurumları" siyahısına daxil edib. Bu xəbəri eşidərkən insan təəccübünü gizlədə bilmir. Əcəba, kim kimdən şikayət edir? Halbuki, bu ölkənin əksər mətbuatı, o cümlədən "Səhər" televiziyası və "Mehr" xəbər agentliyi çoxdan "düşmən media" statusuna layiq görülməli idilər.***




*Yaxud, İran Kəşfiyyat Nazirliyinin AzTV barədə qərarına nə ad vermək olar?*

Məsələyə Media İnkişafı Agentliyinin bəyanatla cavab verməsi təqdirəlayiqdir. Azərbaycan jurnalistləri peşəkardırlar, fəaliyyətlərini beynəlxalq standartlar səviyyəsində qurmağa çalışırlar və əksər hallarda buna nail olurlar. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsində yazılıb: "Media Reyestrinə daxil edilmiş jurnalistlərin peşə fəaliyyətinin həyata keçirilməsinə digər dövlətlər tərəfindən xüsusi məhdudiyyətlər qoyulduqda həmin məhdudiyyətləri tətbiq etmiş dövlətin jurnalistlərinə Azərbaycan Respublikasında da eyni məhdudiyyətlər qoyula bilər". Deməli, milli maraqlarımıza zidd fəaliyyət göstərən "Səhər" telekanalı və "Mehr" xəbər agentliyinin, həmçinin bu subyektlərin nümayəndələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyətinin qanunsuz hesab edilməsi qarşı tərəfə tutarlı cavab olardı.

İranın AzTV-ni "düşmən media qurumları" siyahısına daxil etməsi iki ölkə arasında informasiya müstəvisində yeni gərginlikdən xəbər verir. Tehran bunu təhlükəsizlik və milli maraqlarla əlaqələndirsə də, əslində bunu siyasi və informasiya qarşıdurmasının tərkib hissəsi kimi qiymətləndirmək olar. Düzdür, İran bu qərarın tam izahını açıqlamayıb, fakt ortadadır. Bu addımın arxasında dayanan əsas amillərə gəlincə, bunun informasiya müharibəsi olduğunu unutmamalıyıq. Son illərdə İran və Azərbaycan arasında media və informasiya məkanında qarşılıqlı ittihamlar artıb. İranın dini hakimiyyəti bəzi xarici media qurumlarını öz təhlükəsizliyinə qarşı fəaliyyət göstərməkdə ittiham edir. Digər amil Azərbaycan–İran münasibətlərində gərginliklə bağlıdır. İki ölkə arasında müxtəlif dövrlərdə sərhəd təhlükəsizliyi, regional geosiyasət, İsraillə əməkdaşlıq və digər məsələlər ətrafında fikir ayrılıqları yaşanıb. Belə siyasi gərginliklər media sahəsinə də təsir göstərir. İran mediası və rəsmiləri hesab edir ki, AzTV-nin bəzi reportaj və proqramları İranın daxili və xarici siyasətini tənqid edir. Azərbaycan tərəfi isə bunu jurnalist fəaliyyəti və informasiya vermək hüququ kimi qiymətləndirir. Rəsmi Tehranın belə qərarlar qəbul etməsi həm də ölkə daxilində ictimai rəyə təsir göstərmək üçündür. İranın media və internet üzərində sərt nəzarət siyasəti də bu kontekstdə qeyd olunur. İranın qərarı söz və media azadlığı baxımından da qəbuledilməzdir.

MEDİA agentliyinin İranın AzTV-ni "düşmən media qurumları" siyahısına daxil etməsini media azadlığına zidd addım kimi qiymətləndirməsi beynəlxalq praktikada irəli sürülən prinsipə uyğundur. Bir çox beynəlxalq təşkilatlar hesab edir ki, media qurumları ilə bağlı məhdudiyyətlər aydın hüquqi əsaslara söykənməli, şəffaf olmalıdır. Digər tərəfdən dövlətlər milli təhlükəsizlik və informasiya təhlükəsizliyi arqumentlərini əsas gətirərək bəzi xarici media qurumlarına məhdudiyyətlər tətbiq edə bilirlər. Bu yanaşma təkcə İrana məxsus deyil, müxtəlif ölkələr də müəyyən hallarda belə bir addım atırlar. Amma həmin məhdudiyyətlər əsaslandırılmalı, məsələyə hüquqi qiymət verilməli, ifadə azadlığı ilə milli təhlükəsizlik arasında balans qorunmalıdır. AzTV-nin mövqeyi əsasən media azadlığı və dövlət televiziyasının fəaliyyətinə qarşı siyasi motivli addım atıldığı arqumentinə söykənir.

Əlbəttə, bu addımla rəsmi Tehran Azərbaycanla münasibətlərindəki gərginliyi növbəti dəfə nümayiş etdirir. Son illərdə iki ölkə arasında münasibətlərdə sərhəd təhlükəsizliyi, regional geosiyasət, İsraillə əməkdaşlıq, media və informasiya məkanı ilə bağlı ardıcıl fikir ayrılıqları yaşanıb. AzTV-nin "düşmən media" siyahısına salınması həmin gərginliyin informasiya müstəvisində davamı kimi görünür. Ehtiyatlı olmaq lazımdır. Bir hadisə əsasında "münasibətlər yeni mərhələyə keçdi" demək üçün diplomatik əlaqələrin səviyyəsi, iqtisadi əməkdaşlıq, sərhəd münasibətləri və yüksək səviyyəli siyasi dialoq kimi digər göstəricilər də nəzərə alınmalıdır. Hazırkı vəziyyətdə ən balanslı qiymətləndirmə budur ki, Tehranın qərarı Azərbaycan–İran münasibətlərində artıq mövcud olan siyasi və informasiya gərginliyinin dərinləşməsinin əlaməti kimi görünür, lakin münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçdiyini qəti şəkildə təsdiqləmir. İranın davam etdirdiyi bu siyasəti diplomatik yolla, praktik mexanizmlərlə həll etmək mümkündür. Əslində Azərbaycandan qaynaqlanmayan problemin açarı da İran tərəfdədir. Media sahəsində yaranan gərginliyi azaltmağın yolu ilk növbədə dövlətlərarası dialoqdan keçir. Bunun üçün bir neçə istiqamət nəzərdən keçirilə bilər. Bunlardan birincisi, qeyd etdiyimiz kimi, diplomatik kanalların aktiv saxlanılmasıdır. Xarici işlər nazirlikləri və digər aidiyyəti dövlət qurumları arasında birbaşa təmaslar fikir ayrılıqlarında ortaq məxrəcin tapılmasına vəsilə ola bilər. Media qurumları arasında peşəkar dialoq narahatlıqları hüquqi və peşəkar səviyyədə həll edər və siyasi ritorikanı azaldar. Hazırkı şəraitdə media sahəsində münasibətlərin tam normallaşması yalnız media qurumlarının öz iradəsindən asılı deyil. Bu sahə Azərbaycan–İran siyasi münasibətlərinin ümumi vəziyyətindən birbaşa təsirlənir. Əgər siyasi dialoq genişlənər və qarşılıqlı etimad artarsa, media müstəvisindəki gərginliyin də azalması ehtimalı yüksələr.

**V.VƏLİLİ**

---

***Dil millətin mənəvi simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi də millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və onu qorumaq qüdrətinin, eyni zamanda, ədəbi dilinin zənginliyinin təsdiqidir. Bütün bunlarla yanaşı, Azərbaycan dili, həm də xalqımızın varlığının əsas təminatçısı, milli varlığını müəyyənləşdirən mühüm amillərdən biridir. Bir sözlə, ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb, bayraq kimi müqəddəsdir.***

# 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

Bu önəmli məsələdən danışarkən, bir məqamı xatırlatmaq istərdim. Belə ki, ötən əsrin 70-ci illərinin ortalarından başlayaraq, keçmiş SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndi. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq cəsarət tələb edirdi. Vəziyyətin dəhşətli şəkil alması özünü onda göstərirdi ki, hələ ötən əsrin 30-cu illərində dil məsələsini qabardanlar Sibirə sürgün olunurdu. Hətta milli respublikaların rəhbərləri tərəfindən də ana dili məsələsinin gündəmə gətirilməsi son dərəcə müşkül bir iş idi. Bütün bunlara baxmayaraq, məhz elə 70-ci illərdə Azərbaycan Respublikasının rəhbəri olan ümummilli liderimiz Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirdi. Ulu öndərimizin təşəbbüsü ilə 1978-ci il aprel ayının 27-də Azərbaycan SSR Konstitusiyasına "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsi əlavə olundu.

Yeri gəlmişkən, dahi şəxsiyyət Azərbaycana rəhbərliyinin bütün dönəmlərində dilçi alimlərə xüsusi qayğı ilə yanaşırdı. Ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər dilimizin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı. Onu da qeyd edim ki, 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunan Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapıb. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilib.

Ulu öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalayıb. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyan bu tarixi sənəd dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları özündə ehtiva edib. Yeni əlifbanın tətbiqi də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş vermiş mühüm hadisələrdən biridir. Müstəqilliymizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpası zəruri etdi. Bu mənada "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" ulu öndərimizin 9 avqust 2001-ci il tarixli fərmanı tarixi hadisədir.



*Xatirə RƏHİMBƏYLİ,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*Prezident təqaüdçüsü*

Bundan başqa, 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qanuna əsasən Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayılıb, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradılıb.

Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin ana dilimizin qorunması üzrə siyasi xəttinə daim sadiqlik nümayiş etdirib. Dövlətimizin başçısı tərəfindən 2004-cü il yanvarın 12-də imzalanan "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam ilə hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanırb. Həmin il yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il dekabrın 30-da "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarla ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşib.

Müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Azərbaycan Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı 2013-cü il 9 aprel tarixli sərəncamı ilə təsdiq etməsi də milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının, zənginliyinin qorunması baxımından böyük tarixi hadisədir. Dövlət proqramının məqsədi Azərbaycan dilinin istifadəsinin və tədqiqinə dövlət qayğısının artırılması, dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasıdır.

# 5-ci Milli Yaylaq Festivalından FOTOREPORTAJ

*İyulun 24, 25 və 26-da Göygöl rayonunun əsrarəngiz Xan Yaylağı ərazisində yerləşən "Xan Yurdu" etnoqəsəbəsində «V MİLLİ YAYLAQ FESTİVALI» keçirildi. "Səs" qəzeti xəbər verir ki, Festivalda müxtəlif ölkələrdən olan minlərlə insan iştirak edib. Xan Yurdu adlanan yaylaq ərazisində çox sayda çadırlar qurulmuş, milli oyunlar, sərgilər, əyləncə məkanları təşkil edilmiş, müxtəlif etnik qrupların mədəniyyətinə aid konsert proqramları təşkil olunmuşdu.*



Açılış mərasimində Gənclər və İdman Naziri Fərid Qayıbov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Milli Məclisin deputatı Kamran Bayramov, Türkiyə



tvpress.az

Respublikasının Gəncə baş konsulu Rəcəb Öztop, TİKA-nın Bakı proqramının koordinatoru Mahmud Ağırman, "Cavad xan" Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti, festivalın layihə rəhbəri Müzadil Həsənov və digər şəxslər iştirak ediblər.

Açılış mərasimində əvvəlcə milli musiqilərin sədaları altında qarşılanıb. Daha sonra müxtəlif rəqs nümunələri göstərilib. Festival iştirakçıları yerli etnik musiqi qruplarının ifalarını, kollektivlərin çıxışlarını, milli rəqsləri, xalq mahnılarını izləyiblər. Daha sonra tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov bildirib ki, festivalın əsas məqsədlərindən biri milli-mənəvi dəyərlərin qorunması və adət-ənənələrin gənc nəslə aşılanmasıdır:

"Festivalın keçirməkdə bir neçə məqsəd var. Əsaslardan biri milli-mənəvi dəyərlərimi gənc nəsillərə aşılamaqdır. Prezident İlham Əliyev gənclərlə dəfələrlə görüşlərində bu məsələnin əhəmiyyətini vurğulayıb, müxtəlif dövlət qurumlarına bununla bağlı müvafiq tövsiyələr verib. Beşinci dəfə təşkil olunan Milli Yaylaq Festivalında biz doğrudan da milli ab-havanı görürük, hiss edirik. Buna görə ilk növbədə sizlərə təşəkkürümü bildirmək istəyirəm".

Açılış mərasimində çıxış edən Göygöl RİH-in başçısı Vüqar Novruzov artıq ənənə halını almış V Milli Yaylaq Festivalının yerli və xarici qonaqların hər il böyük maraqla gözlədiyi, xalqımızın zəngin mədəni irsini, yaylaq həyatını, qədim elat ənənələrini və milli-mənəvi dəyərlərini yaşadan ənənəvi mədəniyyət bayramına çevrildiyini, həmçinin özündə Türk dünyasını birləşdirən, regionların turizm potensialının inkişaf etdirilməsi və mədəni irsin gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən dövlət siyasətinin tərkib bir hissəsi olduğunu qeyd edib. Həmçinin bildirib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi milli-mənəvi dəyərlərin və tarixi-mədəni irsin qorunmasına yönəlmiş dövlət siyasətinin bu gün Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir, eyni zamanda I vitse-prezident hörmətli Mehriban xanımın milli-mədəni irsimizin qorunması və beynəlxalq səviyyədə tanıdılması istiqamətində həyata keçirdiyi fəaliyyət mühüm əhəmiyyət daşıyır.

Rayon rəhbəri Festivalın təşkilində əməyi olan bütün tərəfdaş qurumlara minnətdarlığını bildirərək, layihənin Göygölün turizm potensialının tanıdılmasına və beynəlxalq əməkdaşlığın genişlənməsinə mühüm töhfə verdiyini vurğulayıb.

Milli Yaylaq Festivalının layihə rəhbəri Müzadil Həsənov isə vurğulayıb ki, festival ilbəil miqyasını genişləndirərək təkcə yerli qonaqların deyil, xarici turistlərin də böyük maraq göstərdiyi beynəlxalq platformaya çevrilib. O, etnoqəsəbədə yaradılan şəraitdən söz açaraq tədbirin ərsəyə gəlməsində əməyi keçən hər kəsə minnətdarlığını ifadə edib. Ziyarətçilər milli mədəniyyətimizi, qədim el sənətlərini, ənənəvi kənd həyatını və Azərbaycan mətbəxinin zəngin nümunələrini yaxından tanımaq imkanı əldə ediblər. Milli idman növləri və etnospor üzrə təşkil olunan proqramlar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.



Qeyd edək ki, V Milli Yaylaq Festivalı «Cavad xan» Tarix və Mədəniyyət Fondunun təşkilatçılığı, Gənclər və İdman Nazirliyi, TİKA və Dünya Etnosport Birliyinin əsaslı dəstəyi, Göygöl rayon İcra Hakimiyyəti, Yunus Emre İnstitutu, Türk Mədəniyyəti və İrsi Fondunun, Dünya Etnoidman Konfederasiyasının və digər tərəfdaş qurumların dəstəyi ilə, Bank Respublika və «Azersun Holding»-in rəsmi sponsorluğu ilə keçirilib.

**Lalə Mehralı**

TƏHLİL

# Fransa casusunun həbs olunması ilə yeni faktlar üzə çıxdı

*Zaman-zaman Fransanın bəzi üzüqara olmuş bəd niyyətli hakimiyyət nümayəndələri, eləcə də özünü dünya ictimaiyyətinə hələ də prezident kimi təqdim edən E.Makron Azərbaycana qarşı qərəzli yanaşmalar nümayiş etdirib, əsassız ittihamlar səsləndirib. 30 il Azərbaycan torpaqlarının erməni işğalında qalmasında Fransanın işğalçıya böyük miqyasda hərbi, siyasi, maliyyə dəstəyi olub.*

Azərbaycanda erməni əsilli hərbi canilərin dəstəkləyən addımlar atıb, terrorçuları qoynunda bəsləyib və onları Azərbaycan ərazilərinə göndərib. Dəfələrlə separatçı ideoloqlar Parisdə yüksək səviyyədə qəbul ediliblər. Bu kimi həyasız addımlarla yanaşı, Makronun sifarişlərinin qulu olan hakim partiyanın nümayəndələri Fransa parlamentində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sual altına qoyan, onlara xələl gətirən, separatçı rejimi tanıyan qərar və qətnamələr qəbul ediblər. Eyni zamanda, erməni terrorçu dəstələri ilə sıx əlaqələdə olduqlarını gizlətməyərək Qarabağdakı keçmiş qondarma separatçı rejimlə dostluq qrupları formalaşdırıblar. 44 günlük Vətən müharibəsi dönəmində də Fransa hakimiyyəti Azərbaycana qarşı erməni maraqlarından çıxış etməkdən, pozucu, təxribatçı mövqe nümayiş etdirməkdən çəkinmədi. Hətta bu üzdəniraq Fransa rejimi müharibənin gedişində Ermənistana hər cür dağıdıcı gücə malik silah-sursat, hərbi texnika ötürməkdən çəkinmədi. Lakin hər cür hərbi, siyasi dəstəyə baxmayaraq Azərbaycan Ermənistanı, həm də Fransanı məğlub etdi, Paşinyanı ağ bayraq qaldırmağa və təslimçilik aktını imzalamağa məcbur etdi. Bundan sonra Fransa hakimiyyəti Azərbaycana qarşı açıq mübarizədən çəkinərək, gizli fəaliyyətə başladı. Bu məqsədlə ölkəmizə müxtəlif yollarla casuslar göndərildi, Bakıda və regionlarda agentura şəbəkələri qurmağa cəhdlər göstərdi. Ancaq bu cür iyrənc fəaliyyətləri də nəticəsiz qaldı. Fransa maraqlarına xidmət edən, müxtəlif vasitələrlə casusluq missiyasını yerinə yetirənlər Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən aşkar edilərək, həbs olundular.

## Fransa casusunun həbs olunması ilə yeni faktlar üzə çıxdı

Həbs olunan Fransa casuslarından biri də özünü "Merkorama" MMC-nin baş direktoru kimi təqdim etmiş, əslində, Fransa xüsusi xidmət orqanlarının yüksək rütbəli zabiti olan Martin Rayandır. İstintaq araşdırması ilə məlum olmuşdur ki, Martin Rayan Azərbaycan Respublikasında istehsal edilən silah-sursatlar, 2020-ci il 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun komplektləşdirilməsi, Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətdə olan və ya ehtiyata buraxılmış, əlaqəyə cəlb edilməsi mümkün olan şəxslər, xaricdə fransız dilində təhsil almış şəxslər, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə vətəndaşları və hüquqi şəxslər, Fransa xüsusi xidmət orqanının tapşırığı ilə Azərbaycan üzərindən digər ölkələrə gizli pul köçürülməsinin təşkili imkanları, bir sıra xarici dövlətlərlə Azərbaycan arasında münasibət və əlaqələr, hərbi əməkdaşlıq planları, Azərbaycana idxal olunan silah-sursat barədə məlumatların əldə edilməsinə dair tapşırıqlar almasına və bu istiqamətlərdə fəaliyyətinə əsaslı şübhələr müəyyən edilib. Təqsirləndirilən Fransa vətəndaşı Martin Ryan azərbaycanlı Azad Məmmədlini Bakı şəhərində Fransanın xüsusi xidmət orqanlarının əməkdaşları ilə görüşdürüb. Azad Məmmədliyə görəcəyi işlərin qarşılığında xarici vətəndaşlıq vəd olunub. Təqsirləndirilən şəxslər DTX tərəfindən 2023-cü il dekabrın 4-də həbs olunublar. "Merkorama" MMC-nin baş direktoru olan Martin Ryana qarşı casusluq ittihamı irəli sürülüb. Martin Ryan onu məxfi əməkdaşlığa cəlb edən, sonradan Bakıdan "persona non-grata" elan edilərək qovulmuş Fransanın DGSE (Xarici Təhlükəsizlik Baş İdarəsi) əməkdaşları tərəfindən agent-casus kimi istifadə edilib. Həmin cinayət işi üzrə Martin Ryana AR Cinayət Məcəlləsinin 276-cı (casusluq) maddəsi, AR vətəndaşı Azad Məmmədliyə isə AR Cinayət Məcəlləsinin 274-cü maddəsi (dövlətə xəyanət) ilə ittiham irəli sürülüb. Bakı Ağır Cinayətlər Məhkəmə prosesində onların cinayət əməlləri sübuta yetirilib və məhkəmənin hökmü ilə Martin Ryan 10 il, Azad Məmmədli isə 12 il müddətinə azadlıqdan məhrum edilib. Qərarla razılaşmayan casuslar yuxarı instansiya məhkəməsinə şikayət ünvanlayıblar. İyulun 30-da Bakı Apellyasiya Məhkəməsində hakim Murad Məmmədovun sədrliyi ilə keçirilən prosesdə qərar elan edilib. Qərara əsasən, müdafiə tərəfinin verdiyi şikayət təmin edilməyib və Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü dəyişdirilmədən saxlanılıb.

## Fransa hakimiyyəti casus şəbəkə yetişdirdiyi üçün üzr istəməlidir

Diqqətçəkən məqam ondan ibarətdir ki, Fransa hakimiyyəti məhkəmənin ədalətli qərarını qəbul edib, casus şəbəkə yetişdirdiyinə görə Azərbaycan xalqından üzr istəməkdənsə, fərqli yol tutdu. Yenə də əsassız iddia, şər və böhtanlarla öz iyrənc əməllərini və fəaliyyətlərini ört-basdır etməyə çalışdılar. Fransanın Avropa və Xarici İşlər Nazirliyi bir qədər də irəli gedərək diplomatik etket qaydalarını pozaraq məhkəmə prosesini şübhə altına almağa cəhdlər göstərib. Bununla yanaşı, yenə də Makronun sayıqlamalarına, Fransa parlamentinin dezinformasiya tipli informasiyalarını səsləndirməkdən çəkinməyib və ölkəmizə qarşı əsassız ittihamlar irəli sürülüb. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Martin Rayana hökm ilə bağlı Fransanın Avropa və Xarici İşlər Nazirliyinin bəyanatını şərh edərkən iddiaları qətiyyətlə rədd edib. Bildirilir ki, Martin Rayan barəsində cinayət işi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq araşdırılıb və təqdim edilmiş sübutlar və ona qarşı irəli sürülən ittihamlar əsasında məhkəmə qərar qəbul edib. Apelyasiya instansiyasının qərarı da Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində həyata keçirilmiş məhkəmə prosesinin nəticəsidir: "Bu baxımdan, Fransa tərəfinin məhkəmə prosesləri siyasi don geyindirməsi, Azərbaycan məhkəmələrinin fəaliyyətinə müdaxilə xarakteri daşıyan bəyanatlar verməsi, "əsassız saxlanılma" və "ədalətsiz məhkəmə araşdırması" ilə bağlı iddialar irəli sürməsi qəbuledilməzdir".



Hesab etmək olar ki, bundan sonra Fransa dövləti, onun separatçılara dəstək verən, maliyyələşdirən hakim zümrəsi reallıqları qəbul edəcək və əməllərinə görə rəsmi qaydada üzr istəyəcəklər. Əgər belə bir addım atılmasa, deməli, onlar reallıq hissini itiriblər və separatçılardan heç nə ilə fərqlənmirlər.

**İ.ƏLİYEV**

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!




«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

ARAŞDIRMA

# Evdəki görünməz təhlükə: elektrik cərəyanı uşaqları necə hədəfə alır?

***Elektrik enerjisi gündəlik həyatın ayrılmaz hissəsinə çevrilsə də, uşaqlar üçün evdəki ən görünməz təhlükələrdən biri olaraq qalır. Valideynlərin əksəriyyəti iti alətlər, dərmanlar və ya kimyəvi maddələrin təhlükəsini nəzərə alsa da, telefon şarj cihazları, uzadıcılar, rozetkalar və müxtəlif elektrik naqilləri çox vaxt diqqətdən kənarda qalır. Halbuki mütəxəssislər bildirirlər ki, azyaşlı uşaqların elektrik xəsarətlərinin böyük hissəsi məhz ev şəraitində, gündəlik istifadə olunan elektrik avadanlıqları ilə təmas nəticəsində baş verir. SİA mövzu ilə bağlı araşdırma edib.***



Son illərdə vəziyyəti daha da mürəkkəbləşdirən amillərdən biri evlərdə elektron cihazların sayının kəskin artmasıdır. Əvvəllər bir evdə bir-iki elektrik cihazı aktiv istifadə olunurdusa, bu gün demək olar ki, hər otaqda telefon, planşet, noutbuk, ağıllı saat, robot tozsoran, internet modemi, televizor, müxtəlif adapterlər və uzadıcılar mövcuddur. Nəticədə uşaqların elektrik mənbələri ilə təması da əvvəlki illərlə müqayisədə xeyli artıb. Beynəlxalq tədqiqatlar göstərir ki, elektrik xəsarətləri ən çox 5 yaşadək uşaqlarda qeydə alınır. Bu yaş dövründə uşaqlar ətraf mühiti toxunaraq və ağız vasitəsilə öyrəndikləri üçün elektrik naqillərini çeynəmək, şarj kabelini dartmaq və ya rozetkaya müxtəlif əşyalar salmaq kimi davranışlar nümayiş etdirirlər. Xüsusilə yeriməyə yeni başlayan uşaqlar üçün elektrik naqilləri oyuncağa bənzəyir və bu da ciddi təhlükə yaradır.

Bir çox valideyn hesab edir ki, ən böyük təhlükə yalnız rozetkalardır. Halbuki mütəxəssislər bununla razılaşmırlar. Son illərdə aparılan araşdırmalar göstərir ki, uşaqların elektrik zədələrinin əhəmiyyətli hissəsi telefon şarj cihazları, uzadıcılar və elektrik naqilləri ilə bağlıdır. Telefon şarj cihazlarının günlərlə rozetkada qalması, keyfiyyətsiz adapterlərdən istifadə, qırılmış və izolyasiyası zədələnmiş kabellər riski daha da artırır.

Xüsusilə telefonların gecə boyu şarjda saxlanılması, yataqda və ya yastıq altında şarj olunan cihazlardan istifadə həm elektrik vurması, həm də yanğın baxımından təhlükəli hesab edilir. Mütəxəssislər qeyd edirlər ki, telefonun özündən çox, keyfiyyətsiz adapterlər və zədələnmiş şarj kabelləri təhlükə mənbəyidir. Uşaqlar bu naqilləri dartdıqda və ya ağızlarına apardıqda ciddi yanıq xəsarətləri ala bilərlər.

Dünyada baş vermiş hadisələr bu risklərin real olduğunu göstərir. ABŞ-də son illərdə bir neçə azyaşlı uşaq boş qoşulmuş telefon adapterinin açıq metal hissəsinə toxunaraq ağır elektrik yanıqları alıb. Bəzi hallarda uşağın boynundakı metal boyunbağı və ya əlindəki metal əşya adapterlə təmas yaradaraq elektrik cərəyanına səbəb olub. Digər ölkələrdə isə uşaqların uzadıcıya qoşulmuş çoxsaylı cihazların yaratdığı qısaqapanma nəticəsində baş verən yanğınlarda zərər çəkməsi qeydə alınıb.

Elektrik təhlükəsi təkcə cərəyan vurması ilə məhdudlaşmır. Güclü elektrik cərəyanı ürək ritminin pozulmasına, tənəffüsün dayanmasına, dərin toxuma yanıqlarına, sinir sisteminin zədələnməsinə, huşun itirilməsinə və bəzi hallarda ölümə səbəb ola bilər. Elektrik xəsarətlərinin ən təhlükəli tərəfi isə ondan ibarətdir ki, bəzən dəridə ciddi yanıq izi görünməsə belə, daxili orqanlarda ağır zədələnmə baş verə bilir. Bundan başqa, elektrik avadanlıqları ev yanğınlarının da əsas səbəblərindən biri hesab olunur. Beynəlxalq yanğın təhlükəsizliyi təşkilatlarının məlumatlarına görə, həddindən artıq yüklənmiş uzadıcılar, keyfiyyətsiz adapterlər və nasaz elektrik kabelləri yaşayış evlərində baş verən yanğınların əhəmiyyətli hissəsinə səbəb olur. Uşaqların bu cür yanğınlar zamanı xəsarət alma riski isə daha yüksəkdir.

İnkişaf etmiş ölkələrdə bu risklərin azaldılması üçün müxtəlif təhlükəsizlik standartları tətbiq edilir. ABŞ və Kanadada yeni tikilən evlərdə uşaqlar üçün qoruyucu mexanizmə malik rozetkaların quraşdırılması geniş yayılıb. Böyük Britaniyada istifadə olunan rozetkaların xüsusi daxili qoruma sistemi sayəsində rozetkaya metal əşyanın daxil edilməsi xeyli çətinləşdirilir. Bir sıra Avropa ölkələrində isə elektrik şəbəkəsində diferensial qoruyucu açarlar (RCD) məcburi hesab olunur. Bu qurğular insan elektrik cərəyanına məruz qaldıqda cəmi bir neçə millisaniyə ərzində elektrik xəttini avtomatik ayıraraq ağır nəticələrin qarşısını ala bilir.

Mütəxəssislər hesab edirlər ki, texniki vasitələrlə yanaşı, valideyn nəzarəti də həlledici rol oynayır. Rozetkalara qoruyucu qapaqların taxılması, istifadə olunmayan şarj cihazlarının rozetkadan çıxarılması, uzadıcıların uşağın əli çatmayan yerdə yerləşdirilməsi, qırılmış kabellərin dərhal yenisi ilə əvəz edilməsi, keyfiyyət sertifikatı olmayan adapterlərdən istifadə edilməməsi və uşaqlara erkən yaşlardan elektrik təhlükəsizliyi qaydalarının izah olunması sadə, lakin effektiv tədbirlər hesab olunur.

Mütəxəssislər həmçinin valideynlərə xəbərdarlıq edirlər ki, uşaq elektrik cərəyanına məruz qaldıqda ilk növbədə onu birbaşa əllə tutmaq olmaz. Əvvəlcə elektrik mənbəyi söndürülməli və ya uşaq cərəyan mənbəyindən taxta, plastik kimi elektrik keçirməyən əşya vasitəsilə uzaqlaşdırılmalıdır. Bundan sonra təcili tibbi yardım çağırılmalı, hətta uşaq özünü normal hiss etsə belə, mütləq həkim müayinəsindən keçirilməlidir.





Çünki elektrik xəsarətlərinin bəzi ağır fəsadları saatlar sonra üzə çıxa bilər.

Müasir dövrdə uşaqları elektrik təhlükəsindən qorumaq yalnız rozetkaların qapaqla bağlanması demək deyil. Evdə istifadə olunan hər bir şarj cihazı, adapter, uzadıcı və elektrik naqili potensial risk mənbəyi hesab edilməli, onların təhlükəsiz istifadəsi ailənin gündəlik vərdişinə çevrilməlidir. Kiçik bir ehtiyat tədbiri bəzən ömürboyu peşmançılıq yarada biləcək faciələrin qarşısını ala bilər.

***Ayşən Vəli***

## ELAN

**Elvin Nəsib oğlu İsmayılzadənin adına verilmiş, AR063507 nömrəli, 4 saylı Ərazi Vergilər İdarəsinin Operativ vergi nəzarəti şöbəsinin Böyük dövlət vergi müfəttişinə məxsus xidməti vəsiqə itmişdir. Həmin xidməti vəsiqə etibarsız hesab edilsin.**

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**